Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

# Diaspor fəallarımız Azərbaycan Milli Ordusuna hər yerdə dəstək verir

## Rafael Allahverdiyev: "Şuşaya bayarğımızı prezident İlham Əliyevin özü sancacaq"



**Bu il sentyabr ayının 27-də Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistana məxsus hərbi qruplar cəbhə boyunca Füzuli, Ağdam, Goranboy, Tərtər, Ağcabədi, Bərdə və digər bölgərimizi müxtəlif çaplı silahlardan atəşə tutdular. Azərbaycan Milli Ordusu dərhal düşmən tərəfinə qarşı gərəkən addımları atdı. Yaranmış şəraiti düzgün qiymətləndirən dövlət başçısı İlham Əliyev ali baş komandan kimi müvafiq addımların atılması üçün əmrlər verdi. İşğalçı düşmənə qarşı barışmaz mövqe nümayiş etdirməklə onları ölkəmizin sərhədlərindən kənara qədər neytrallaşdırmaqla prosesi davam etdirmək. Prezident İlham Əliyev haqlı olaraq açıqlama verərək dünya ictimaiyyətini fakt qarşısında qoydu: "Bizlər 30 ildir beynəlxalq təşkilatların sülh yaratmaq təşəbbüslərinə səbrlə dözdük. Daha nə qədər gözləməliyik? İşğalçı Ermənistan ordusu və silahlı quldur dəstələri geri çəkilmək, Azərbaycanın işğal altındakı ərazilərini boşlatmaq fikrindən daima uzaq durublar. Azərbaycan Ordusu öz ərazisi və sərhədləri daxilində işğalçılara qarşı mübarizə aparır. Dünyanın heç bir inkişaf etmiş ölkəsi işğalçılıq siyasətinə bu qədər dözümlü iradə göstərməyibdir. Ona görə də biz ərazilərimizi işğalçılardan təmizləməklə bir milyondan çox məcburi köçkünlərimizi doğma torpaqlarında yenidən sülh şəraitində yaşamalarını təmin etmək istəyirik".**

### Bir həkim kimi Qarabağda çalışmaq ən böyük arzumdur

Məsud Əlemdarlı, ixtisasca həkimdir. Norveçdə yaşayır. O, bizimlə söhbətində son olaylarla bağlı bunları söylədi: "Əslən Güney Azərbaycandanam. 1980-ci illərdə Azərbaycan Respublikasına siyasi mühacir olaraq yaşamağa gəldim. Bakıda Tibb Universitetində təhsil aldım. 1991-1995-ci illərdə Qarabağ uğrunda döyüşən yaralıların müalicəsində iştirak etdim.Bəzən səkkiz saatlıq rejimini unudaraq 15-20 saat onların yanında qalırdım. Tale elə gətirdi ki, Norveçə köçdüm. Ancaq, hər il tətilimi hansısa qürbət ölkədə deyil, doğma Azərbaycanda keçirirəm. Burada istər Güney Azərbaycan, istərsə də Quzey Azərbaycanın taleyüklü problemləri ilə bağlı aksiyalarda iştirak edirəm. Norveçdə ana dilimizdə fəaliyyət göstərən "Azərbaycan radiosu"nun yaşaması üçün hər ay gəlirimdən maddi yardım edirəm. Bütün yürüş və aksiyalarda qatılır və imkansızlıq ucbatından aksiyalarda iştirak edə biməyənlətə isə maddi dəstək verirəm. Azərbaycan adına nə kimi aksiyalar keçirilirsə, varlığımla orada oluram. 27 sentyabr aksiyaları nəticəsində hərəkətə keçən Azərbaycan Respublikasının prezidenti və Ali Baş Komandanı İlham Əliyevin könüllü hərbi səfərbərlik əmrinə qoşulan onminlərlə soydaşımızın bu nəcib addımı bizim qürur mənbəyimizdir. Bir həkim kimi Milli Ordumuzun yanında olmağa hazıram. Biz Azərbaycan həqiqətlərini norveçli və digər xalqlara xalq diplomatiyası yolu ilə izah edirik. Cəsarətlə deyə bilərəm ki, Norveçdə Ermənistanın işğalçılıq siyasətini müdafiə edənləri barmaqla göstərmək olar. Çünki, Skandinav dövlətləri istənilən ölkənin işğalçılıq hədəfərinə pis baxırlar. İşğal olunmuş ərazilərimizin Milli Ordumuz tərəfindən azad edilməsi prosesini diqqətlə izləyirik. Hər uğuru alqışlarla qarşılayırıq. İnanırıq ki, yaxın zamanda Şuşa, Xankəndi, Kəlbəcər, Xocalı, Xocavənd, Əsgəran, Laçın, Qubadlı, Zəngilan, Ağdam və digər tarixi torpaqlarımızda dövlət bayrağımız dalğalanacaqdır".

### Avropa və mədəni dünyanın tək istəyi: "Cənubi Qafqaz stabil bölgə olmalıdır"

Hicran Əliyeva, "Varşava Universiteti"nin əməkdaşı, professor, "Şərqi Avropa Dövlətləri ilə Əməkdaşlıq və Qafqaz üzrə strateji araşdırmalara görə Polşanın tanınmış mütəxessisi: "Polşada 30 ilə yaxındır yaşayıram. Əvvəllər Bakıda Dövlət Televiziyasının əməkdaşı olmuşam. Sonra, ixtisasımı artırmaq üçün Polşaya getdim. Tale elə gətirdi ki, bu dövlətin vətəndaşı oldum. Ancaq, doğma Azərbaycanla bağlı hər gün müxtəlif dillərdə informasiyaları oxuyur və analiz edirəm. Çünki, Qafqaz və Azərbaycanla bağlı hər bir dövlətin informasiyaları, strateji təhilləri elə bu dövlətin münasibətinin açıq və ya gizli hədəflərinin bir parçasıdır. Polşa dövlət olaraq daim Azərbaycana isti münasibət bəsləyib. Bunun tarixi kökləri XVI-XVII ərslərə bağlı olan bir fəlsəfə ilə tamamlanır. Çünki, Polşanın öz dövlətini qoruması özəlliklə indiki anlayışla Krım və Azərbaycan türklərinə borcludurlar. Bu gün Polşaya son illərdə Ermənistan və qondarma Dağlıq Qarabağdan köçüb gələn 250 min nəfərlik erməni icması var. Onların "rusiyapərəst" mövqe nümayiş etdirmələri polyakların heç də xoşlarına gəlmir. Burada kilsə amili mühüm rol oynayır. Tarixən ortodoks kilsəsi və katolik kilsəsi arasında rəqabət olubdur. Ona görə də katolik polyaklar ortodokslara soyuq münasibət sərgiləyirlər. Polşanın fərqli bölgələrində yaşayan azərbaycanlı miqrantların sayı beş min nəfərdir. Sevindirisi hal ondan ibarətdir ki, soydaşlarımızın çoxu intellektual baxımdan Avropa standartlarına uyğundurlar. Əvvəlki illərdən fərli olaraq alverçilər və kriminal ünsürlər artıq yoxdur. Biz fərqli təşkilatlar və qurumlarda təmsil olunsaq da, vətən məsələsində vahid mövqedən çıxış edirik. Bir siyasi icmalçı və araşdırmaçı kimi onu da əlavə edirəm ki, Qafqaz və Şərqi Avropa Əməkdaşlıq konsepsiyaları məsələsində uzun müddətdir avropalı partnoyorlarımızı inandırmağa çalışdığımız bir problem 30 illik fasilədən sonra, özünü təsdiq etməyə başlayıbdır. Bu, Azərbaycanın dövlət olaraq işğal altındakı ərazilərini erməni işğalçılarından tamamilə azad etməsi üçün başlatdığı antiterror əməliyyatlarıdır. Bu əməliyyatlar olduqca uğurla həyata keçirilir. Beləliklə Cənubi Qafqazda bundan sonra, əsil sülh və regional stabillik yaranacaq. Avropanın və mədəni dünyanın istədiyi də budur".

### Rafael Allahverdiyev: "Şuşaya bayarğımızı prezident İlham Əliyevin özü sancacaq"

Rafel Allahverdiyev, Stavopol vilayətinin Minvod şəhər "Azərbaycan Milli-Mədəni Muxtariyyatı Mərkəzi"-nin sədri: "Biz neçə illərdir Rusiyanın müxtəlif regionlarında milli diaspor təşkilatlarımızın Azərbaycan dövlətçiliyinə inam və bu istiqamətdə xalqlarası dostluq əlaqələrinin inkişaf etdirilməsi, Rusiya ilə strateji münasibətlərə sadiq olmanı təbliğ etmişik. Bu günə kimi hər hansı uğursuzluğumuz olmayıb. Ona görə ki, intellektual səviyyədə işimizi qorumaqla bütün bunlara nail olmuşuq. 27 sentyabr 2020-ci ildə Ermənistanın işğalçı hərbi hərbi qüvvələrinin Azərbaycanın digər bölgələrinə qarşı başlatmaq istədiyi yeni hərbi təcavüzkar siyasətinə qarşı dövlətimizin layiqli cavab verməsi və bunun ardınca genişmiqyaslı antiterror əməliyyatlarına başlaması bizlərdə qürur hissi oyatdı. Çünki, prezident İlham Əliyev Ali Baş Komandan kimi bu prosesə birbaşa rəhbərlik edir. Stavropol vilayətində yaşayan bütün soydaşlarımız və onları bir araya gətirən müxtəlif diaspor təşkilatlarımızın gözləri hər gün Azərbaycandan gələn xoş xəbərlərə dikilib. Bizlər burada boş dayanmamışıq. Stavropol vilayətində yaşayan müxtəlif xalqların cəmiyyətləri ilə davamlı şəkildə görüşlər keçirir və onlara haqq işimizin mənasını izah edirik. Ermənistanın işğalçılıq siyasətinin hədəflərini açıqlayırıq. Ermənistanın sözdə Rusiya dövləti ilə strateji müttəfiqlik etməsi, gizlində isə, Fransa və digər dövlətlərlə əlaqələrin inkişafına üz tutmasının bütün çalarlarını faktlar əsasında ortaya qoyuruq.



Faktiki olaraq Stavopol vilayətində yaşayan rus, avar, çeçen, dargin, inquş, qaraçay, tatar, gürcü, tabasaran və digər xalqlar artıq bizlərə daha çox inanmağa başlayıblar. Rus-Kazak Atamanlar Şurası faktiki olaraq Ermənistanı daha çox qınayır. Ona görə ki, sözdə Rusiya dövlətinin regional, siyasi və təhlükəsizlik məsələsində müttəfiqi kimi özünü elan etsə də, əməldə fərqli mövqedə olmasını lənətləyirlər. Biz diaspor təşkilatı olaraq, hər zaman Azərbaycanın yanındayıq. İşğal olunmuş ərazilərimizin addım-addım azad edilməsi və Milli Ordumuzun qələbələr əldə etməsi Rusiyada, qürbətdə yaşayan bütün soydaşlarımız kimi, bizim əsil qürur mənbəyimizdir. İnanırıq ki, yaxın günlərdə dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevin özü şəxsən Şuşada bayrağımızı sancacaq. O günü anbaan sərbsirsizliklə gözləyirik".

### Məsud Haray: "Qarabağda qələbəmiz dünyanın mənzərəsini dəyişəcək"

Məsud Haray, şair-publisist, "GünAz TV" kanalının əməkdaşı: "Tale elə gətirdi ki, ailəlikcə Türkiyəyə köçdük. İndi İzmir şəhərində yaşayırıq. Demək olar ki, burada böyük bir Azərbaycan dünyası mövcuddur. Əslən azərbaycanlı olaraq bir zamanlar Ermənistan və Gürcüstandan olan və Türkiyəyə köçüb gələnlər, Güney və Quzey Azərbaycandan olan və İzmirdə məskən salanlar, çoxsaylı tələbələr İzmirin ruhuna yeni bir düzən gətiriblər. Təbii olaraq şair və yazar kimi vətənimin dilbər guşəsi Xoy və Urmuda yaşadığım dönəmlərdə vətən sevdalısı kimi fəaliyyətlər göstərmişəm. İndi "GünAzTV" kanalının əməkdaşı olaraq Azərbaycan həqiqətlərini dünyaya tanıtmaq üçün çalışıram. Bu tv kanal xaricdə yeganə milli tribunamızdır. Çox istərdim ki, belə tribunaların sayı yaxın müddətdə daha çoxalsın. Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın 30 ildir işğal altında olan və işğalçı Ermənistan tərəfindən bir sıra beynəlxalq təşkilatların qərarlarına əməl etməməsinə cavab olaraq iri miqyaslı antiterror əməliyyatları istiqamətində verdiyi əmr tarixi ədalətin öz yerini tapmasıdır. Məni bir insan olaraq qürurlandıran əsil səbəb prezidentin bu əmrinə cavab olaraq soydaşlarımızın könüllü olaraq vətən uğrunda savaşa səfərbər olunmaları ilə bağlı verdikləri qərarlardır.

Yeddidən yetmişə qədər hər kəs bu müqəddəs savaşda iştirak edərək vətənə olan borcunu ödəmək istəyir. İlham Əliyevin prezident kimi bu qərarı həm də 50 milyonluq dünya azərbaycanlıları tərəfindən müdafiə olunur. Bizləri milli birliyə səsləyən və müqəddəs amala süsləyən addımların inanıram ki, davamı gələcək. Ermənilər və onların havadarlarını da ən çox qorxudan bu amildir.

**"Hürriyyət"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında çap olunur